

# Bakı Fond Birjası 2020-ci il üzrə illik Hesabatı

2020

BAKI FOND BİRJASI

*Mühüm hadisələr*

# 2020-ci il üzrə

## 2020-ci il ərzində korporativ qiymətli kağızlar bazarında yüksək ticarət dövriyyəsi

2020-ci il ərzində 50 mln manat səhm və 101 mln manat istiqraz olmaqla ümumilikdə 151 mln manat həcmində korporativ qiymətli kağızların (ipoteka istiqrazları istisna olmaqla) yerləşdirilməsi həyata keçirilmişdir. Ötən il ilə müqayisədə ipoteka istiqrazları istisna olmaqla korporativ istiqrazların ilkin bazarının dövriyyəsi 2020-ci ildə 6.6 dəfə artmışdır. Ümumilikdə, 2020-ci il ərzində AzerGold, Kapital Bank, Ferrum Kapital, Bank BTB, BOKT Embafinans kütləvi üsulla qiymətli kağız buraxılışları həyata keçirtmişdir.

## BMT-nin Dayanıqlı Fond Birjaları Təşəbbüs Qrupu ilə əməkdaşlıq

Bakı Fond Birjası Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı Fond Birjaları Təşəbbüs (red. – ingiliscə "The UN Sustainable Stock Exchange Initiative", abbrevatura – "UNSSE") qrupuna üzv olaraq qəbul olunmuşdur.

## Yenilənmiş Listinq və Ticarət qaydalarının qəbulu

Bakı Fond Birjasının Listinq Qaydalarının, o cümlədən Ticarət Qaydalarının yeni layihəsi 11 mart 2020-ci il tarixində qüvvəyə minmişdir. Listinq Qaydalarına edilən dəyişikliklər nəticəsində beynəlxalq təcrübəyə uyğun bazar seqmentlərinin formalaşdırılması və listinqə daxil edilmə proseslərinin optimallaşdırılması təmin edilmişdir. Belə ki, səhm və istiqrazların listinqi üzrə 2 seqment müəyyən edilmiş (əsas və standart bazar seqmentləri), eyni zamanda alternativ bazar seqmenti ləğv edilmişdir.

## Koronavirus pandemiyasının kapital bazarı iştirakçılarına mənfi təsirini azaltmaq məqsədi ilə görüləcək tədbirlər

Koronavirus (COVID-19) pandemiyasının kapital bazarı iştirakçılarına mənfi təsirini azaltmaq məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Bankının təklif etdiyi dəstəkləyici tədbirlərə əsasən Bakı Fond Birjası tərəfindən aşağıdakı tədbirlər həyata keçiriləcəkdir:

01 yanvar 2021-ci il tarixindən 01 iyul 2021-ci il tarixinədək listinqə daxil olan korporativ qiymətli kağızların emitentləri listinqə daxil olduqları tarixdən 1 (bir) il müddətinə listinq haqqlarından azad ediləcəkdir.

Qiymətli kağızların kütləvi təklif üsulu ilə yerləşdirilməsi zamanı tələb olunan sənədlərin dairəsi 01 iyul 2021-ci il tarixinədək minimallaşdırılmışdır və emitentlərdən yalnız notarial qaydada təsdiq edilmiş qiymətli kağızların dövlət reyestrindən çıxarışı və emissiya prospekti tələb ediləcəkdir.

## Bakı Fond Birjasının üzvlüyündə 2 yeni investisiya şirkəti

2020-ci ildə "ABB-İnvest investisiya şirkəti" QSC və "MFX Trading İnvestisiya Şirkəti" ASC müraciətləri əsasında BFB-nin üzvlüyünə qəbul edildilər. Bununla da, BFB-nin üzvlərinin sayı 9-a yüksəlmişdir.

BAKI FOND BİRJASI

*Yanvar-Dekabr 2020*

# AYLIQ STATİSTİKA

Bakı Fond Birjasında 2020-ci ilin yanvar-dekabr ayları ərzində qiymətli kağızlar üzrə keçirilən əməliyyatların ümumi həcmi **12,902,026,738** manat təşkil etmişdir. Nəticə olaraq, ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi təkrar bazar üzrə ticarət həcmində **47%**, korporativ qiymətli kağızlar bazarı üzrə **89%**, repo əməliyyatları üzrə isə **92%**, səhmlər üzrə ilkin bazarda **71 misli**, səhmlər üzrə təkrar bazarında isə **9 misli** qədər böyümə qeydə alınmışdır. 2020-ci ilin dekabr ayının son ticarət günü üzrə Bakı Fond Birjasının kapitalizasiyası **3,957,888,532** manat təşkil etmişdir.

**47 %**
*Ümumi təkrar bazar*

**92%**
*Repo əməliyyatları*

**89%**
*Korporativ qiymətli kağızlar bazarı*




*MN- Maliyyə Nazirliyi
*KQK- Korporativ qiymətli kağızlar
*DQK- Dövlət Qiymətli Kağızları
*T.B- Təkrar bazar
*İ.B- İlkin bazar

*Bakı Fond Birjası Ümumi Ticarət Dövriyyəsi*

# YANVAR-DEKABR 2020

| Bazarlar / Əməliyyatlar | 31.12.2020-ci il tarixinə | | 31.12.2020-ci il tarixinə | |
|---|---|---|---|---|
| | Əqdlərin həcmi (manatla) | Əqdlərin sayı | Əqdlərin orta günlük** həcmi (manatla) | Əqdlərin orta günlük sayı |
| **1. Dövlət qiymətli kağızları** | **8,622,875,116** | **1,737** | **35,928,646** | **7** |
| **1.1. İlkin bazar** | **7,610,537,051** | **1,161** | **31,710,571** | **5** |
| Dövlət istiqrazları (AR Maliyyə Nazirliyi) | 1,163,194,797 | 357 | 4,846,645 | 1 |
| ARMB* qiymətli kağızları | 6,447,342,253 | 804 | 26,863,926 | 3 |
| **1.2. Təkrar bazar** | **1,012,338,065** | **576** | **4,218,075** | **2** |
| Dövlət istiqrazları | 520,937,574 | 515 | 2,170,573 | 2 |
| ARMB qiymətli kağızları | 491,400,491 | 61 | 2,047,502 | 0.3 |
| **2. Korporativ qiymətli kağızlar** | **2,128,970,925** | **2,691** | **8,870,712** | **11** |
| **2.1. İlkin bazar** | **402,461,434** | **195** | **1,676,923** | **1** |
| 2.1.1. Səhmlər | 50,000,000 | 55 | 208,333 | 0.2 |
| 2.1.2. İstiqrazlar | 352,461,434 | 140 | 1,468,589 | 0.6 |
| - İpoteka istiqrazları | 250,831,348 | 14 | 1,045,131 | 0.1 |
| - Digər istiqrazlar | 101,630,086 | 126 | 423,459 | 0.5 |
| **2.2. Təkrar bazar** | **1,726,509,491** | **2,496** | **7,193,790** | **10** |
| 2.2.1. Səhmlər | 29,932,975 | 2,035 | 124,721 | 8 |
| 2.2.2. İstiqrazlar | 1,696,576,517 | 461 | 7,069,069 | 2 |
| - İpoteka istiqrazları | 1,668,856,602 | 100 | 6,953,569 | 0.4 |
| - Digər istiqrazlar | 27,719,915 | 361 | 115,500 | 2 |
| **3. Repo əməliyyatları** | **2,150,180,697** | **1,322** | **8,959,086** | **6** |
| Dövlət istiqrazları üzrə | 1,941,087,455 | 1240 | 8,087,864 | 5 |
| ARMB qiymətli kağızları üzrə | 172,309,811 | 51 | 717,958 | 0.2 |
| Korporativ qiymətli kağızlar üzrə | 36,783,431 | 31 | 153,264 | 0.1 |
| **Cəmi (1+2+3)** | **12,902,026,738** | **5,750** | **53,758,445** | **24** |
| - o cümlədən: ilkin bazar | **8,012,998,484** | **1,356** | **33,387,494** | **6** |
| - o cümlədən: təkrar bazar | **2,738,847,556** | **3,072** | **11,411,865** | **13** |

# Birja üzvlərinin yanvar-dekabr ayları üzrə renkinqi

## İnvestisiya şirkətləri

| Qiymətli kağızın növünə görə | "Paşa Kapital İ.Ş" QSC | "Unicapital İ.Ş" ASC | "BTB Kapital İ.Ş" ASC | "AzFinance İ.Ş" QSC | "İnvest-AZ İ.Ş" QSC | Xalq Kapital İ.Ş" QSC | "PSG Kapital İ.Ş" QSC | "MFX Trading İ.Ş "ASC | "ABB İnvest İ.Ş "QSC |
|---|---|---|---|---|---|---|---|---|---|
| ARMB qiymətli kağızları | 4,391,949,994 | 288,434,652 | 487,926,310 | 737,879,147 | 624,850,510 | 736,070,457 | 145,423,049 | - | - |
| Dövlət istiqrazları | 2,258,052,348 | 323,936,012 | 418,789,165 | 311,247,297 | 15,755,053 | 12,590,310 | 27,294,637 | 599,921 | - |
| Korporativ istiqrazlar | 1,654,169,713 | 17,306,914 | 501,119,564 | 122,104,553 | 110,626,460 | 22,628,549 | 26,345,829 | - | - |
| Səhm | 139,979,243 | – | 2,004,899 | 50,448 | 17,062,869 | 530,387 | 227,123 | - | 10,980 |
| Repo | 2,549,082,953 | 1,406,641,070 | 79,037,795 | 208,398,764 | 24,498,184 | - | 32,702,629 | - | - |
| Cəmi əməliyyatların həcmi | 10,993,234,251 | 2,036,318,648 | 1,488,877,733 | 1,379,680,210 | 792,793,077 | 771,819,703 | 231,993,268 | 599,921 | 10,980 |
| Cəmi əməliyyatların həcmi | 2722 | 1378 | 730 | 1865 | 2103 | 678 | 1113 | 2 | 1 |



BAKI FOND BİRJASI

# Bazarlar üzrə Top 3 birja üzvləri

## Ümumi əməliyyatların həcmi görə




## Səhm bazarı üzrə




## Korporativ istiqraz bazarı üzrə




## Repo əməliyyatları üzrə



BAKI FOND BİRJASI

# 2020-ci il üzrə bazar trendləri
*(manatla)*







**Dövlət qiymətli kağızları üzrə ticarət həcmi**
***(manatla)***




**Korporativ qiymətli kağızlar üzrə ticarət həcmi**
***(manatla)***

# 2020-ci il üzrə bazar trendləri

*(manatla)*




# Repo əməliyyatları

*(manatla)*




Tel: (99412) 539-72-49; http://www.bfb.az; Ünvan: Yasamal rayonu, Həsən Bəy Zərdabi 2A, Bakı AZ1141, Azərbaycan